**Azərbaycan Respublikasında xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri ilə bağlı bəzi normativ-hüquqi aktların təsdiq edilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

"Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 15 iyul tarixli 366 nömrəli Fərmanına əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Azərbaycan Respublikasının təbiət parklarının ümumi Əsasnaməsi", "Azərbaycan Respublikasının dövlət təbiət yasaqlıqlarının ümumi Əsasnaməsi" və "Xüsusi mühafizə olunan təbiət ərazilərinin və obyektlərinin dövlət kadastrının və monitorinqinin aparılması Qaydaları" təsdiq edilsin (əlavə olunur).

2. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Baş naziri A. RASİZADƏ**

Bakı şəhəri, 4 yanvar 2001-ci il
№ 2

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2001-ci il 4 yanvar tarixli 2 nömrəli qərarı ilə
TƏSDİQ EDİLMİŞDİR

## Azərbaycan Respublikasının dövlət təbiət yasaqlıqlarının Ümumi ƏSASNAMƏSİ

### 1. ÜMUMİ MÜDDƏALAR

1.1. Dövlət təbiət yasaqlıqları - təbiət komplekslərinin və ya komponentlərinin qorunması və ya bərpası, habelə ekoloji tarazlığın saxlanması üçün xüsusi əhəmiyyət daşıyan ərazilərdir.

1.2. Dövlət təbiət yasaqlıqları torpaq mülkiyyətçilərindən, istifadəçilərindən və icarəçilərindən torpaq sahələri alınmadan qanunvericiliklə müəyyən edilmiş qaydada onların torpaq sahələrində təşkil edilə bilər.

1.3. Dövlət təbiət yasaqlıqları müxtəlif profilli, o cümlədən kompleks, bioloji, paleontoloji, hidroloji və geoloji profilli ola bilər.

1.4. Dövlət təbiət yasaqlıqları respublika və ya bölgə əhəmiyyətli ola bilər.

### 2. DÖVLƏT TƏBİƏT YASAQLIQLARININ YARADILMASI

2.1. "Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 15 iyul tarixli 366 nömrəli Fərmanına uyğun olaraq dövlət təbiət yasaqlıqları Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyin təqdimatı əsasında Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 15 iyul tarixli 366 nömrəli Fərmanına uyğun olaraq dövlət təbiət

yasaqlıqları Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin təqdimatı əsasında Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı ilə yaradılır.

2.2. Dövlət təbiət yasaqlıqlarının hər biri üçün pasport hazırlanır və bu ərazilərin pasportu Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyində dövlət qeydiyyatına alınmaqla dövlət təbiət yasaqlıqlarında saxlanılır.

2.3. Hər bir dövlət təbiət yasaqlıqlarının Əsasnaməsi Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən təsdiq edilir.

2.4. Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş xüsusi mühafizə olunan təbiət ərazilərinin sxemləri əsasında onların yaradılması və genişləndirilməsi üçün torpaq sahələri müvafiq ehtiyat torpaq fondunda saxlanılır və həmin ərazilərdə torpaqların istifadəsinə məhdudiyyətlər qoyulur.

## 3. DÖVLƏT TƏBİƏT YASAQLIQLARININ YARADILMASINDA MƏQSƏD

3.1. təbiət komplekslərinin və ya onların komponentlərinin qorunması və bərpası;

3.2. ekoloji tarazlığın saxlanılması;

3.3. yaranma profilindən (məqsədindən) asılı olaraq torpaq mülkiyyətçiləri, istifadəçiləri və icarəçiləri tərəfindən təsərrüfat fəaliyyətində müəyyən edilmiş məhdudiyyətlərə əməl edilməsini təmin etmək;

3.4. elmi, mədəni, tədris və məhdud təsərrüfat fəaliyyətlərini həyata keçirmək.

## 4. DÖVLƏT TƏBİƏT YASAQLIQLARININ XÜSUSİ MÜHAFİZƏ REJİMİNİN XÜSUSİYYƏTLƏRİ

4.1. Dövlət təbiət yasaqlıqlarının ərazilərində mühafizə rejiminin xüsusiyyətləri onların hər biri haqqında Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən təsdiq edilmiş Əsasnamə ilə müəyyən edilir.

4.2. Dövlət təbiət yasaqlıqlarında təbiət komplekslərinə və onların komponentlərinə zərər vura bilən hər hansı fəaliyyət qadağan edilir.

4.3. Üstündə dövlət təbiət yasaqlıqları yerləşən torpaq sahələri mülkiyyətçilərdən, istifadəçilərdən və icarəçilərdən geri alınmadan, onların razılığı və ya məhkəmənin qərarı ilə servitut hüququ (özgə torpaq sahəsindən məhdud istifadə hüququ) əsasında istifadə olunur.

4.4. Dövlət təbiət yasaqlıqlarının ərazilərində təbiət komplekslərinin və ya komponentlərinin qorunmasını və ya bərpasını, habelə ekoloji tarazlığın saxlanmasını təmin etmək məqsədilə torpaq mülkiyyətçiləri və istifadəçiləri təsərrüfat fəaliyyətlərini müəyyən edilmiş məhdudiyyətlərə əməl etməklə həyata keçirməlidirlər.

4.5. Dövlət təbiət yasaqlıqlarının ərazilərindən və obyektlərindən istifadəsi qanunda nəzərdə tutulmuş hallarda ödənişli ola bilər.

4.6. Dövlət təbiət yasaqlıqlarının ərazisində yaranma profilindən (məqsədindən) asılı olaraq aşağıdakılar qadağan və yaxud məhdudlaşdırıla bilər:

geoloji kəşfiyyat və faydalı qazıntı işlərinin aparılması;

su, bataqlıq, ərazilərinin qurudulması və meliorativ işlərinin aparılması;

bitki aləmindən təsərrüfat məqsədilə, habelə biçənək və otlaq kimi istifadə edilməsi;

ov və balıq ovu (balıqartırma və elmi-tədqiqat məqsədləri ilə balıq ovu istisna olmaqla), vəhşi fauna növlərinin təsərrüfat məqsədilə istifadə edilməsi və ovlanması;

ətraf mühitə hər hansı kimyəvi, bioloji və fiziki təsirin tətbiq edilməsi;

kütləvi idman və tamaşa tədbirlərinin keçirilməsi, çadırların qurulması və tonqalların yandırılması;

tikintilərin aparılması, torpaqların şumlanması, yabanı bitkilərin yığılması;

yasaqlıqların ekoloji keyfiyyətinə mənfi təsir göstərən, mühafizə olunan obyektlərin qorunub saxlanması rejimini pozan və varlığına təhlükə yaradan hər bir digər fəaliyyət.

4.7. Dövlət təbiət yasaqlıqlarının mühafizəsi onun mühafizə işçiləri tərəfindən həyata keçirilir, bu işə direktor və direktor müavini rəhbərlik edirlər.

4.8. Dövlət təbiət yasaqlıqlarının mühafizə xidməti aşağıdakı hüquqlara malikdir:

dövlət təbiət yasaqlığının ərazisində mövcud qanunçuluğu pozanların sənədlərini yoxlamaq, nəqliyyat vasitələrini saxlamaq, qanunvericiliklə müəyyən edilmiş qaydada nəqliyyat vasitələrini və gəmiləri, hüquqpozmaya səbəb olmuş alətləri, cihazları və əşyaları, qanunsuz əldə edilmiş məhsulları, habelə müvafiq sənədləri götürmək və qanunu pozan şəxslərdən izahat almaq;

dövlət təbiət yasaqlığının ərazisində mövcud qanunvericiliyə və mühafizə rejiminə zidd olan fiziki və hüquqi şəxslərin fəaliyyətini dayandırmaq;

dövlət təbiət yasaqlığının ərazisində qanunvericiliyi pozmuş, cinayət və ya inzibati xəta törətmiş şəxsləri qanunvericiliklə müəyyən edilmiş qaydada saxlamaq, onları hüquqi-mühafizə orqanlarının sərəncamına vermək;

dövlət təbiət yasaqlığının ərazisində öz səlahiyyətləri daxilində inzibati xəta haqqında protokollar ~~(aktlar)~~ tərtib etmək; [10]

dövlət təbiət yasaqlığının ərazisində mühafizəsi və istifadəsi sahəsində pozuntu hallarını aradan qaldırması haqqında icrası məcburi olan göstərişlər vermək və digər tədbirlər görmək.

4.9. Dövlət təbiət yasaqlığının rejiminin pozulmasında təqsirkar olan şəxslər Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada məsuliyyət daşıyırlar.

Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında qanunvericiliyin pozulması nəticəsində dövlət təbiət yasaqlığına vurulmuş zərər Azərbaycan Respublikasının Mülki Məcəlləsində və təbiətin mühafizəsi ilə bağlı digər qanunvericilik aktlarında nəzərdə tutulmuş qaydada ödənilir.

4.10. Dövlət təbiət yasaqlığının mühafizə rejimini həyata keçirən işçilərə xidməti vəzifələrini yerinə yetirərkən xüsusi geyim forması daşımaqla Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq xidməti silah saxlamaq və gəzdirmək hüququ verilir.

4.11. Dövlət təbiət yasaqlığının idarəetmə tədbirlərində bələdiyyələrin, ictimai birliklərin və əhalinin iştirak etmək hüququ vardır.

## 5. DÖVLƏT TƏBİƏT YASAQLIĞININ MÜHAFİZƏSİNƏ, QORUNMASINA VƏ İSTİFADƏSİNƏ DÖVLƏT NƏZARƏTİ

5.1. "Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 15 iyul tarixli 336 nömrəli Fərmanına əsasən dövlət təbiət yasaqlığının vəziyyətinə, mühafizəsi, qorunması və bərpası üzrə tədbirlərin yerinə yetirilməsinə, qanunvericiliklə nəzərdə tutulmuş qaydalara və tələblərə əməl olunmasına Dövlət nəzarətini Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi həyata keçirir. [11]